

# "ZƏFƏR BİZİM ZƏFƏRİMİZDİR"

***Salatın Əhmədlinin müharibə hekayələrinin təqdimindən qeydlər***

Oktyabrın 8-də Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı-publisist Salatın Əhmədlinin "Zəfər bizim zəfərimizdir" adlı müharibə hekayələrindən ibarət kitabının təqdimatı oldu. Təqdimat auditoriyasına keçmiş döyüşçülər, müharibə veteranları, şəhidlərin doğmaları, söz-sənət adamları, tarixçi alimlər toplaşmışdılar. Hər kəs müəllifin müqəddəs yazıçılıq missiyasını təqdir etmək üçün söz demək amacında idi.

Filologiya elmləri doktoru, yazıçı-publisist



Salatın Əhmədli tədbirə təşrif gətirən qonaqları auditoriyaya məmnunluqla təqdim edir, onların gəlişindən sözünə verilən dəyərin mahiyyətini razılıqla bildirirdi. Çıxışçıların nitqlərində müharibənin ən müxtəlif tərəflərinə münasibət bildirilir, bir çox hallarda tarixi ekskursla deyilənlər milli-mənəvi dəyərlərimizə, tariximizə işıq salırdı. Bu barədə tədbir öncəsi telemüsahibəsində şair-publisist Əli Rza Xələfli 44 günlük müharibənin xarakterini belə şərh etdi: "44 günlük Vətən müharibəsində ordumuzun qələbəsi təkcə torpaqlarımızı azad etməklə tarixi əhəmiyyət daşımır, bu, həm də Azərbaycanın tarixi qəhrəmanlıq ənənələrinin yaşarılığını bir daha sübut etdi. Zənnimcə S.Əhmədlinin xüsusi həssaslıqla qələmə aldığı "Zəfər bizim zəfərimizdir" hekayələr kitabı müharibənin mahiyyətinə bu yöndən daha güclü işıq salır". O, daha sonra qeyd etdi ki, biz qələbəni gözləyirdik. Bilirdik ki, torpaqlarımızı nə vaxtsa azad edəcəyik, yağı tapdağından xilas edəcəyik. Ancaq beynəlxalq təşkilatlar hər vəchlə Azərbaycanın haqlı istəyinə qarşı çıxır, problemin müharibə ilə həlli yolu olmadığına bizi inandırmağa çalışırdılar. Ancaq səbir daşanda heç nəyə baxmır, Ali Baş Komandan qətiyyətlə dəmir yumruğu işə saldı. Bir sözlə, bu, böyük tarixi hadisə idi. Zaman-zaman elmi araşdırmalar prosesin geri dönməz axarını tədqiq edəcək, söz-sənət sahibləri Azərbaycan əsgərinin yenilməzliyini bədii ədəbiyyata gətirəcək, bədii və sənədli filmlər çəkiləcək. Elə birinci təşəbbüs kimi S.Əhmədlinin "Zəfər bizim zəfərimizdir" kitabının əsasında müharibə xronikasının sənədli seriallari yaradıla bilər.

***(Davamı 9-cu səhifədə)***

# "ZƏFƏR BİZİM ZƏFƏRİMİZDİR"

## Salatın Əhmədlinin müharibə hekayələrinin təqdimindən qeydlər



*(Əvvəli 3-cü səhifədə)*

Yazıçılar Birliyinin katibi, şair, publisist, tərcüməçi Səlim Babullaoğlu tədbiri açaraq giriş nitqində S.Əhmədlinin çoxcəhətli yaradıcılığına dair geniş və əhatəli məlumat verərək qeyd etdi: "Qəhrəmanlığın varislik təminatı bədii düşüncə adamlarının, elmi tədqiqatçıların yaratdıqlarından çox asılıdır. Ona görə də biz bu gün yazılan, nəşr edilən, beş il ərzində ərsəyə gələn hər bir bədii əsərə xüsusi önəm verməyə borcluyuq".

Tədbiri filologiya elmləri doktoru, professor, şair, nasir Gülxani Pənah aparırdı. O, çıxışçılar haqqında ətraflı məlumat verərək S.Əhmədlinin hekayələr kitabının real həyati hadisələrlə yaxından səsləşdiyini qeyd etdi. Tədbirdə sənətşünas Nuridə xanım Hacıyeva, professorlar Eynulla Mədətli, İlham Pirməmmədov, telejurnalist Sitarə İsmayıl, şairlərdən Əli Rza Xələfli, Nəzakət, Sərvaz Hüseynoğlu, Güləmail, şəhid anası Rəna xanım və başqaları da Salatın xanımın "Zəfər bizim zəfərimizdir" kitabında yer alan hekayələrdən bəhs etdilər. Müəllifin hekayələri xüsusi can yanğısı ilə yazdığını diqqətə çatdırdılar.



Tədbirdə Salatın xanımın səmimiyyəti və xeyirxahlığı, cəmiyyətə doğmalığı da xüsusi vurğulandı. Tədbirin sonunda Salatın xanım Yazıçılar Birliyinə onun yaradıcılığına xüsusi diqqətə görə minnətdarlığını bildirdi.

**09.10.2025**

**Ceyhun ZALLI**